# XALQINI SEVƏN və XALQIN SEVDİYİ



İlham Əliyev 20 illik prezidentliyi dövründə müəllifi olduğu "Azərbaycanın sürətli və davamlı inkişafı" konsepsiyasını uğurla yerinə yetirdi.

Azərbaycan dayanmadan inkişaf etdi, qarşısındakı bütün hədəflərə çatdı:

* Tarixinin ən qüdrətli məqamına yüksəldi;

* Beynəlxalq nüfuzu artdı, Cənubi Qafqazın ən güclü dövləti oldu;

* Böyük İpək yolunu uğurla işə saldı, beynəlxalq logistika mərkəzi statusunu qazandı;

* İdman dövləti, beynəlxalq idman yarışlarının ən yüksək təşkilatçısı kimi tanındı;

* Dünyanın sanballı dövlətlərindən birinə, söz sahibinə çevrildi.

Prezident İlham Əliyevin Azərbaycana iyirmi illik rəhbərliyinin ən yüksək zirvəsi və nəticəsi isə 44 günlük Zəfər müharibəsindəki qələbə sayıla bilər!

Bu möhtəşəm qələbəni bütün dünya qəbul və etiraf etdi!

Xalqın uzun illər böyük həsrət və səbirsizliklə gözlədiyi gün gəlib çatdı!

Artıq Şərqi Zəngəzur və Qarabağ sürətlə tikilib qurulur, keçmiş məcburi köçkünlər böyük sevinc və fərəhlə doğma el-obaya qayıdırlar.

Bir neçə rəqəmə nəzər salaq:

Son 20 ildə:

* Ümumi daxili məhsil 4 dəfədən çox artıb!

* Xarici borc 10 faizdən aşağı salınıb!

* Yoxsulluq səviyyəsi 50 faizdən 5,5 faizə endirilib!

* Hazırda Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialından maksimum səmərəli istifadə olunur!

* Artıq 170 meqavat gücündə hidroelektrik stansiyaları istifadəyə verilib, ilin sonuna bu rəqəm 270 meqavata çatdırılacaqdır.

* Külək Azərbaycanda, xüsusən Xəzərdə sərvətə çevrilib, elektrik enerjisi istehsalında "fəal iştirak" edir!

* Tezliklə Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanın "yaşıl enerjisi"ni Avropaya çatdıracaqdır!

İşğaldan azad edilən torpaqlar təkcə yaşayış məskənlərinə deyil, həm də istehsal sahələrinə çevrilir!

# XALQINI SEVƏN və XALQIN SEVDİYİ

**Sevgi dillə ifadə olunur!**

**Amma əməldə görünür, konkret işlə sübuta yetirilir.**

Yalnız sözdən ibarət olan sevginin ömrü uzun çəkməz!

*Sevdiyin üçün mümkün olanı etmək, istəklərini gerçəkləşdirmək, arzularını reallığa çevirmək, dediklərini konkret işinlə təsdiq etmək zəruridir.*

*Beləndə kimsədə həmin sevginin həqiqiliyinə və səmimiliyinə zərrə qədər də şübhə qalmaz.*

Sevgi təkcə iki gənc arasında olmur!

Bir ülvi duyğu olmaqla Vətənə, doğmalara, dostlara, xalqına üzağlığı və başucalığı gətirən insanlara da sevgi və hörmət bəslənir.

**Ən böyük sevgi isə ümumxalq sevgisidir!**

**Bu tükənməz və ali sevgi isə hər kəsə qismət olmur!**

*Xalq isə adətən onu sevənləri, ona təmənnasız xidmət edənləri, arzu və istəklərini yerinə yetirənləri sevir.*

Xalqın sevgisini qazananlar onun qəlbində özlərinə əbədi yuva qururlar.

Belələrinin sayı az olsa da, heç zaman onlar unudulmur, adları tarixin şanlı səhifələrinə qızıl hərflərlə həkk edilir.

**Azərbaycanı bir dövlət kimi məhvolmadan xilas edən Ulu Öndər Heydər Əliyev və işğal altındakı torpaqları geri qaytararaq ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail olan Müzəffər Ali Baş Komandan İlham Əliyev tükənməz xalq məhəbbəti qazanmış görkəmli tarixi şəxsiyyətlər sırasında özlərinə əbədi layiqli yer tutmuş rəhbərlərdəndirlər.**

❖ ❖ ❖

**Azərbaycan xalqı heç zaman qorxaq olmayıb!**

**Heç zaman döyüşdən geri duraraq düşmən qabağından qaçmayıb!**

*I Qarabağ müharibəsində də igid oğullarımız döyüşdü, bacardığı qədər el-obasını düşməndən müdafiə etdi.*

Özü də təkcə Qarabağda yaşayanlar vuruşmadılar, respublikanın hər bir guşəsindən gələn oğullar rayonlardakı könüllü özünümüdafiə batalyonlarına yazılaraq yerli əhali ilə çiyin-çiyinə dayandılar!

**Azərbaycan xalqı torpaqlarının müdafiəsi uğrunda 20 min övladını şəhid verdi!**

**Sona qədər çarpışdı, döyüşdü...**

Lakin xalqın bu istiqamətdəki mübarizəsinə dövlət dəstəyi lazımi səviyyədə göstərilmirdi!

*Moskva Ə.Vəzirov və A.Mütəllibov kimi itaətkarları Azərbaycan rəhbərliyinə gətirməklə, əslində, dolayısı yolla erməni separatizminə dəstək verirdi.*

*Meydandan iqtidara gələn AXC-Müsavat cütlüyü isə naşılıqları və şəxsi maraqlarını öndə tutmaları səbəbindən xəyanətə yuvarlandılar.*

**Nə vaxtında ordu quruldu, nə xalqın mübarizəsinə hərbi-təşkilati dəstək verildi, nə düzgün daxili və xarici siyasət aparıldı, nə də SSRİ məkanında və dünyada gedən proseslərdən baş çıxararaq vaxtında zəruri addımlar atıldı.**

**Nəticədə 20 min şəhid verən dövlət ərazisinin 20 faizini də itirdi.**

*Ağılsız siyasət, bacarıqsız rəhbərlik nəticəsində güclü xalq zəif düşmənə uduzdu.*

* Yalnız Heydər Əliyevin qayıdışından sonra bu naşılıqlara və xəyanət əməllərinə son qoyuldu.

* Yalnız Heydər Əliyevin sayəsində ölkədə baş alıb gedən qanunsuzluqlar, xaos və anarxiya aradan qaldırıldı.

* Yalnız Heydər Əliyevin uzaqgörənliyi və qətiyyətli addımları Azərbaycanı məhvolmadan xilas etdi, bir dövlət kimi qəddini düzəltməyə, ayağa durmağa imkan yaratdı.

**Təəssüf ki, ömür vəfa etmədi:**

**Ulu Öndərimiz özündən sonra ölkəni daim irəliyə aparacaq siyasi kurs müəyyənləşdirdi, layiqli siyasi varisini hazırlayıb Azərbaycan xalqına məşhur vəsiyyətini edərək əbədiyyətə qovuşdu.**

*Təməl möhkəm olsa da, onun üzərində möhtəşəm bina ucaltmağın bütün ağırlıqları o dövrdə cavan olan yeni Prezidentin çiyinlərinə düşdü.*

*Xoşbəxtlikdən bu qüdrətli çiyinlər bütün ağırlıqlara tab gətirdi, xalqın inam və etibarı ləyaqətlə doğruldu.*

**İlham Əliyev də Ulu Öndər Heydər Əliyev kimi dövləti hərtərəfli inkişaf etdirməyi, cari məsələləri qarşıda duran və həllini gözləyən problemlərlə üzvi şəkildə əlaqələndirməyi, regionda və dünyada gedən proseslərin dərininə varmağı və onlardan Azərbaycanın xeyrinə istifadə etməyi məharətlə bacardı:**



* Həm xalqın ən zəruri ehtiyacları ödənildi, həm də gələcək inkişafın təməli yaradıldı.

* Həm ölkə daxilində sürətli quruculuq işləri görüldü, həm də düzgün xarici siyasət yürüdüldü, ölkənin beynəlxalq nüfuzu yüksəldildi.

* Həm sülh danışıqları aparıldı, həm də ordu quruculuğu daim diqqət mərkəzində saxlanıldı.

**Hədəf iki oldu: həm iqtisadi cəhətdən güclü dövlət yaradaraq xalqın rifahını yüksəltmək, həm də işğal altındakı torpaqları azad etməkdən ötrü dayanmadan hazırlaşmaq!**

* Hər ikisi külli miqdarda vəsait tələb edirdi;

* Hər ikisi bir-birindən vacib və təxirəsalınmaz məsələlər sayılırdı;

* Hər ikisi gündəlik gərgin fəaliyyət, hesablanmış addımlar atılmasını, xalqın səfərbərliyə alınaraq qüvvələrin vahid məqsədə yönəldilməsini zərurətə çevirirdi.

**Yeni tipli rəhbər olaraq Prezident İlham Əliyev bütün bunları bacardı, ən yüksək səviyyədə icra etdi!**

**Tarixinin ən qüdrətli Azərbaycanını yaratdı!**

❖ ❖ ❖

İlham Əliyev dövlət başçısı seçilənədək Dövlət Neft Şirkətində birinci vitse-prezident və Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsində işləyirdi.

Hər sahənin də özünəməxsus vəzifələri və problemləri vardı.

Həmin dövrdə ən vacib məsələlərdən biri Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması və götürülən gəlirlərdən dövlətin ən zəruri ehtiyaclarının ödənilməsi idi.

*Əvvəlki iqtidarlar uzun müddət neft danışıqları aparsalar da, əlverişli neft müqavilələri bağlaya bilməmişdilər.*

**Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan neft danışıqlarına cənab İlham Əliyev cəlb olundu.**

**Çətin gedən, hərdən qırılmaq təhlükəsi ilə üzləşən danışıqlarda İlham Əliyev bütün diplomatik bacarığını nümayiş etdirdi.**

Tezliklə sonradan "Əsrin müqaviləsi" adını alan və Azərbaycanın bütün maraqlarını təmin edən neft kontraktı imzalandı.

Bu bağlaşmadan götürülən gəlirlər Azərbaycan iqtisadiyyatı üçün lokomotiv rolunu oyandı, yüksəliş üçün etibarlı təmələ çevrildi.

*Cənab İlham Əliyev dövlət başçısı seçildikdən sonra da bu sahəyə böyük diqqət yetirdi, beləliklə, çoxsaylı neft və təbii qaz müqavilələri imzalandı, gələn gəlirlər xalqın güzəranının yüksəldilməsinə, dövlətin iqtisadi qüdrətinin artırılmasına, ordu quruculuğuna, habelə bir sıra möhtəşəm layihələrin reallaşdırılmasına yönəldildi.*

❖ ❖ ❖

**İlham Əliyev Milli Olimpiya Komitəsinə rəhbərliyinin ilk dövrlərindən idmana yalnız fiziki cəhətdən güclü olmaq vasitəsi kimi baxmadığını bəyan etmişdi.**

İdmanın həm də gənclərin pis vərdişlərdən çəkindirilməsinə, vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinə, Azərbaycanın dünyada müsbət imicinin formalaşdırılmasına xidmət etməli olduğunu da söyləyirdi.

*İlham Əliyevin Milli Olimpiya Komitəsinə bu gün də davam edən rəhbərliyi dövründə bütün bu vəzifələr layiqincə yerinə yetirildi:*

* Azərbaycan dünyaya həm də idman dövləti kimi tanıdıldı.

* I Avropa Oyunları ən yüksək səviyyədə keçirilərək digərləri üçün nümunəyə çevrildi.

* Azərbaycan gəncləri dünya, Avropa və beynəlxalq yarışlarda yüksək yer tutaraq Dövlət bayrağını qürurla ucaltmağı və himnimizi səsləndirməyi bacardılar.

* Vətənin vətənpərvər idmançıları düşmən ölkədəki rəqiblərini əvvəlcə idman arenalarında, sonra isə hərb meydanında məğlub edərək üstünlüklərini dönə-dönə sübuta yetirdilər.

* Azərbaycan həm də dünyada beynəlxalq idman yarışlarının keçirilməsini mükəmməl təşkil edən ölkə kimi tanındı.

Görülən işlər sayəsində ölkəmizdə idmanın hərtərəfli inkişafına hər cür şərait yaradılmış, qırxdan çox olimpiya idman kompleksi tikilərək gənclərin ixtiyarına verilmişdir.

*İdmançılarımız bu gün də bütün ranqlı yarışlardakı qələbələri ilə xalqımıza sevinc bəxş edirlər.*

❖ ❖ ❖

**İnsanların ilkin arzusu, ən çox istədikləri nədir?**

Demək olar ki, dünyanın hər yerində eynidir: normal yaşaması üçün ev, daimi iş, yaxşı qidalanmaq, geyinmək və gəzmək üçün vəsait, övladlarına təhsil vermək, xəstələnəndə müalicə almaq imkanı.

Fərdi istək və arzular müxtəlif ola bilər, yaşayışın isə ilkin şərtlərinin mövcudluğu zəruridir.

**Cənab İlham Əliyev Azərbaycana rəhbərliyə başlayanda hər bir azərbaycanlının bu təbii istəyindən başqa bir arzusu da vardı:**

**Torpaqların işğaldan azad edilməsi, ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası, qaçqın və məcburi köçkünlərin doğma el-obalarına qaytarılması.**

*Hər iki məqsədə çatmaq üçün bir yol vardı:*

** Ölkədə sabitliyi qoruyub saxlamaq;*

** İqtisadi inkişafı təmin etmək;*

** Qaçqın və məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq;*

** Milli birliyə nail olmaq;*

** Müstəqil daxili və xarici siyasət yürütmək;*

** Güclü ordu yaratmaq;*

** Beynəlxalq aləmdə fəal iş aparmaq;*

** Azərbaycanın dostlarının sayını artırmaq;*

** Demokratik, qüdrətli, müasir dövlət qurmaq!*

Bir-biri ilə bağlı olan çox çətin, mürəkkəb və xeyli zaman tələb edən məsələlər idi.

**İlham Əliyev problemlərin üzərinə getməyi, məqsədə çatmaq üçün yorulmadan, dayanmadan qətiyyətli mübarizə aparmağı sevən nadir siyasətçilərdəndir.**

Prezidentliyinin ilk günlərindən xalqa verdiyi vədlər ilk baxışdan sadə görünsə də, böyük qüvvə, vəsait və gərgin iş tələb edirdi:

Dövlət müstəqilliyini qoruyub saxlamaq, işğal altındakı torpaqları nəyin bahasına olursa-olsun azad etmək, məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq, günün bütün saatlarında ən ucqar yerlərdə belə elektrik enerjisinin mövcudluğunu təmin etmək, işsizliyi azaltmaq, yoxsulluq səviyyəsini aşağı endirmək...

Sözlə sadalananda hamının ürəyindən olan, vacib, gərəkli məsələlərtəki səslənir...

Deyilənləri əmələ çevirmək isə böyük vəsait, uzaqgörən siyasət, məqsədyönlü fəaliyyət, tükənməz enerji və işgüzarlıq tələb edirdi.

❖ ❖ ❖

Bu gün bəlkə də qəribə səslənir: elektrik enerjisinin fasilələrlə verilməsi, yaşayış məntəqələrinin qaranlığa qərq olması...

Amma həmin dövrdə Azərbaycan Rusiyadan təbii qaz da alırdı və hərdən bu amildən təzyiq vasitəsi kimi də istifadə edilirdi...

Enerjinin fasilələrlə verilməsi təkcə məişətdə çətinliklər yaratmırdı.

Artezian quyuları, suvuran nasoslar dayandığından suvarma işləri ləngiyir, kənd təsərrüfatında məhsuldarlıq aşağı düşür, müəyyən itkilər yaranırdı.

**İlham Əliyev imkan və vəsaitləri düzgün bölüşdürməyi, ilk növbədə və paralel şəkildə görüləcək işləri dəqiq müəyyənləşdirməyi, vaxtdan dolğun və səmərəli istifadəni bacardı.**

* Yol inftastrukturu təzələndi;

* Köhnə elektrik stansiyaları təmir olunaraq yeniləndi;

* Qaz istehsalı artırıldı;

* Məcburi köçkünlər üçün müasir, hər cür şəraiti olan yaşayış kompleksləri salındı;

* Yeni iş yerləri yaradıldı;

* Sahibkarlığın inkişafı üçün tədbirlər görüldü.

*Regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən və uğurla yerinə yetirilən dörd dövlət proqramı bu vəzifələrin ardıcıl və sistemli şəkildə icrasına şərait yaratdı.*

**"Azərbaycan 2020: İnkişafa doğru" konsepsiyası da uğurla yerinə yetirildi.**

**Beləliklə, həm müstəqil Azərbaycan sürətlə inkişaf edərək möhkəmləndi, həm də az bir müddətdə xalqın sosial rifahında nəzərəçarpacaq dönüş və yüksəliş baş verdi.**

❖ ❖ ❖

**İlham Əliyevin ən böyük uğurlarından biri neft kapitalını insan kapitalına çevirməsidir.**

Azərbaycanda gənclər siyasəti, gənclərə qayğı daim dövlət başçısının diqqətində olub.

*Əlbəttə, dövlətin varı təkcə onun təbii sərvətləri sayılmır.*

*Savadlı, ağıllı, müasir biliklərə yiyələnmiş, gərəkli ixtisaslara sahiblənmiş gənc mütəxəssislər də ölkəyə böyük fayda gətirən, onun gələcəyini təmin edən amillər sırasındadır.*

Bəli, Tanrı Azərbaycana neft-qaz sərvəti verib.

Gərəkli mütəxəssisləri, bilikli, vətənpərvər gəncləri isə özümüz yetişdirməliyik.

**Bu niyyətin uğurla gerçəkləşdirilməsi üçün dövlət başçısı cənab İlham Əliyev "neft kapitalını insan kapitalına çevirək" təşəbbüsünü irəli sürdü.**

Bu niyyətin gerçəkləşdirilməsi üçün hər il dövlət büdcəsindən kifayət qədər vəsait ayrılmasını təmin etdi.

Layihə əsasında hər il bilikli və istedadlı gənclər müəyyənləşdirilib seçilərək dünyanın ən tanınmış ali məktəblərində təhsil almaları maliyyələşdirilir.

Artıq bu üsulla xeyli sayda gərəkli ixtisaslar üzrə gənc kadrlar hazırlanmışdır.

**Bu həm də Ulu Öndər Heydər Əliyevin sovet dövründə mərkəzin hesabına Azərbaycan üçün nadir ixtisaslar üzrə kadr hazırlığının özünəməxsus şəkildə davamıdır.**

❖ ❖ ❖

**İnsana qayğı, milli-mənəvi dəyərlərə hörmət, tarixi abidələrin bərpası və qorunması Prezident İlham Əliyevin daxili siyasətinin tərkib hissəsidir.**

**Bu işdə Heydər Əliyev Fondu, onun prezidenti Mehriban xanım Əliyeva dövlətimizin və Prezidentimizin ən yaxın köməkçisidir.**

Məhz Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səmərəli fəaliyyəti sayəsində uşaq evləri və internat məktəblərinin təmiri və təchizatı, ailələr üçün böyük problemə çevrilən hemofiliya və talassemiya xəstəliklərinin müalicəsi məqsədilə yeni tibb müəssisələrinin yaradılması, müvafiq cihaz və avadanlıqlarla təmini, qocalar evinin əsaslı şəkildə yenidən qurulması, işğal bölgələrindəki tarixi, dini və mədəni abidələrin bərpası sahəsində misilsiz işlər görülmüşdür.

Hərbi əməliyyatlar zamanı yaralananların müalicəsi, əlillərin müasir protezlərlə təmini, reabilitasiyaya ehtiyacı olanların qardaş Türkiyəyə müalicəyə göndərilməsi, şəhid ailələrinə xüsusi diqqət və ehtiram, şəhid övladlarının, habelə valideyn himayəsindən məhrum gənclərin təhsil haqlarından azad edilməsi də dövlət qayğısının tərkib hissəsidir.

❖ ❖ ❖

**İlham Əliyev 20 illik prezidentliyi dövründə müəllifi olduğu "Azərbaycanın sürətli və davamlı inkişafı" konsepsiyasını uğurla yerinə yetirdi.**

Azərbaycan dayanmadan inkişaf etdi, qarşısındakı bütün hədəflərə çatdı:

* Tarixinin ən qüdrətli məqamına yüksəldi;

* Beynəlxalq nüfuzu artdı, Cənubi Qafqazın ən güclü dövləti oldu;

* Böyük İpək yolunu uğurla işə saldı, beynəlxalq logistika mərkəzi statusunu qazandı;

* İdman dövləti, beynəlxalq idman yarışlarının ən yüksək təşkilatçısı kimi tanındı;

* Dünyanın sanballı dövlətlərindən birinə, söz sahibinə çevrildi.

**Prezident İlham Əliyevin Azərbaycana 20 illik rəhbərliyinin ən yüksək zirvəsi və nəticəsi isə 44 günlük Zəfər müharibəsindəki qələbədir!**

Bu möhtəşəm qələbəni bütün dünya qəbul və etiraf etdi!

Xalqın uzun illər böyük həsrət və səbirsizliklə gözlədiyi gün gəlib çatdı!

Artıq Şərqi Zəngəzur və Qarabağ sürətlə tikilib qurulur, keçmiş məcburi köçkünlər böyük sevinc və fərəhlə doğma el-obaya qayıdırlar.

Bir neçə rəqəmə nəzər salaq:

Son 20 ildə:

* Ümumi daxili məhsul 4 dəfədən çox artıb!

* Xarici borc 10 faizdən aşağı salınıb!

* Yoxsulluq səviyyəsi 5,5 faizə endirilib!

* Hazırda Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialından maksimum səmərəli istifadə olunur!

* Artıq 170 meqavat gücündə hidroelektrik stansiyaları istifadəyə verilib, ilin sonuna bu rəqəm 270 meqavata çatdırılacaq!

* Külək Azərbaycanda, xüsusən Xəzərdə sərvətə çevrilib, elektrik enerjisi istehsalında "fəal iştirak" edir!

* Tezliklə Qara dənizin dibi ilə çəkiləcək xətt Azərbaycanın "yaşıl enerjisi"ni Avropaya çatdıracaq!

**İşğaldan azad edilən torpaqlar təkcə yaşayış məskənlərinə deyil, həm də istehsal sahələrinə çevrilir!**

❖ ❖ ❖

İlham Əliyev prezidentliyə başlayanda leksikonumuzda ən çox rast gəlinən sözlər "məcburi köçkün", "işğal əraziləri", "təmas xətti", "düşmən tapdağında qalan torpaqlar", "sülh danışıqları" və digər ifadələr idi.

Zəfər müharibəsi bu sözləri arxaik ifadələrə çevirdi!

**İndi isə dünyada yaşayan hər bir azərbaycanlıda sonsuz qürur və iftixar hissi doğuran yeni ifadələr üstünlük təşkil edir: Müzəffər Ali Baş Komandan, qalib xalq, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonu, Füzuli Beynəlxalq Hava Limanı, "yeni köç qayıtdı", "keçmiş məcburi köçkünlərə yeni evlərin açarları təqdim olundu" və s. kimi ürəkaçan ifadələr tez-tez təkrar olunur.**

Artıq bütün dünya Xankəndi adını söyləməyi öyrəndi!

İlk dəfə cənab İlham Əliyev Şuşanı mədəniyyət mərkəzi elan etdi!

Dalbadal neçə ildir ki, Şuşa müxtəlif qurumlar tərəfindən dünyanın mədəniyyət paytaxtı elan edilərək burada ən möhtəşəm tədbirlər keçirilir.

*19-20 sentyabr 2023-cü ildə lokal antiterror tədbirləri uğurla başa çatdıqdan sonra isə bölgənin havası da tam təmizləndi.*

*İndi hamı Qarabağda saf və azadlıq ətirli hava ilə doyunca, ciyərdolusu nəfəs alır!*

❖ ❖ ❖

*Qarabağ problemi Azərbaycan xalqı üçün ümummilli problem idi.*

*Torpaqların erməni işğalından azad edilməsi hər bir azərbaycanlı üçün şərəf məsələsi idi!*

*Bunu yaşından, cinsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir azərbaycanlı arzu edirdi!*

**Qarabağ məsələsi həm də milli qeyrət, milli nüfuz məsələsi idi!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə torpaqlarımızı işğaldan azad etməklə, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Konstitusiya əsaslarını bərpa etməklə hər bir azərbaycanlının ən müqəddəs arzusunu yerinə yetirdi!**

* İlham Əliyev təkcə Azərbaycan deyil, dünya tarixinə də separatizmə hünər və qətiyyətlə son qoyan dövlət başçısı kimi düşdü!

* İlham Əliyev separatizmdən yaxa qurtarmağın yolunu göstərdi, modelini qurmuş oldu!

* İlham Əliyev bu savaşda təkcə vassal Ermənistana yox, onun havadarlarına, arxasında dayananlara, hər hansı formada müdafiəsinə kömək edənlərə də qalib gəldi!

**Müharibə hərb meydanında bitsə də, siyasi və diplomatik müstəvidə davam edir.**

**İlham Əliyev bu gün siyasət meydanında da bütün rəqiblərinin, bədxahlarımızın öhdəsindən məharətlə gəlir!**

*Bunu bütün dünya görür, bilir!*

**Bu qələbəsi sayəsində İlham Əliyev dünyanın ən hörmətli və nüfuzlu dövlət başçılarından biridir!**

**Bu qələbəsi ilə İlham Əliyev dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının sevgi və qürur ünvanıdır!**

Xalqımızın indiyədək görünməmiş milli birliyinə nail olan İlham Əliyev hər bir Azərbaycan vətəndaşının dərin hörmət və məhəbbətini qazanıb!

Onun "Qarabağ Azərbaycandır!" çağırışı ümummilli ideyaya, birləşdirici motivə çevrilib.

*Xalq bu gün də sevimli rəhbərinin, dünyaşöhrətli liderinin yanındadır.*

*Onunla birlikdə Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirərək doğma el-obaya qayıdışa dəstək verir!*

**İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru azad edərək hər birimizin arzusunu reallaşdırmaqla öz xalqına olan sonsuz sevgisini də ifadə etdi!**

**Azərbaycan xalqı da ona hörmət, şərəf, nüfuz gətirən, qalib millətə çevirən rəhbərini sonsuz məhəbbətlə sevdiyini gündəlik əməli işində göstərir!**

QARABAĞ AZƏRBAYCANDIR!

**Bəxtiyar SADIQOV**